# Şəhid evində səyyar qəbul

## Goranboyda icra hakimiyyəti başçısının səyyar görüşlərinin əksəriyyəti şəhid evlərində keçirilir

***Qərb bölgəsində ilk dəfə bunu Goranboyun Veyisli kəndində gördüm. İcra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin səyyar görüş-qəbulu rayonun Veyisli kəndində keçirilirdi. Şəhid Arif Süleymanovun vaxtilə yaşadığı evin həyətində stullar düzülmüş, qonaqlar üçün yer ayrılmışdı. Kənd sakinləri, icra hakimiyyətinin məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, qazilər və şəhidin ailə üzvləri burada idilər. Veyislinin igid oğlu Azərbaycan Ordusunun kiçik çavuşu Arif Süleymanov 2020-ci il sentyabrın 27-də Silahlı Qüvvələrimiz tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və ərazi bütövlüyümüzün bərpası üçün başlanan Vətən müharibəsi zamanı oktyabrın 8-də Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.***

Arif Süleymanov ölümündən sonra ölkə Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Bəri başdan qeyd edək ki, belə bir təşəbbüsün Goranboyda həyata keçirilməsi təqdirəlayiq bir işdir. Əvvələ, şəhidin evinə vaxtaşırı qədəm qoymaq onun xatirəsini daim əziz tutmaqla yanaşı, həm də ailəsinin dərdinə bir daha şərik olmaq, problemlərini, arzu və istəklərini öyrənmək baxımından çox əvəzsiz bir iş üsulu, xeyirxah təşəbbüsdür. Digər tərəfdən, rayonun təsərrüfat rəhbərlərinin hamısının burada iştirak etməsi ortaya çıxa biləcək problemin elə yerindəcə həlli deməkdir.

Əlavə olaraq onu qeyd etmək yerinə düşər ki, Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa göstərişi ilə icra hakimiyyəti başçılarının yerlərdə keçirdikləri səyyar qəbulların Goranboyda şəhid evlərində keçirilməsi təşəbbüsü digər şəhər və rayonlarda da geniş yayılmalıdır. Doğma Qarabağımız uğrunda canlarından keçən igid oğullarımızı biz bir an belə unuda bilmərik.

Orada olarkən sual verdim ki, əgər hər hansı bir kəndin şəhidi yoxdursa, onda necə olsun? Dedilər ki, bu zaman Birinci Qarabağ müharibəsində şəhid olanların evinə yığışırıq. Az kənd olar ki, hər iki savaşda şəhid verməmiş olsun. İndi baxıram təkcə Goranboy rayonu Birinci Qarabağ savaşında 252 şəhid verib. Bütün kəndlərin şəhidləri var. Şəhidin isə təzəsi, köhnəsi olmur. Torpaq uğrunda ölən varsa, onun bir şərəfli adı var: ŞƏHİD!



...Səyyar qəbul-görüş başlanır. Rayon icra hakimiyyətinin başçısı əvvəlcə qabaq cərgədə əyləşən şəhid Arif Süleymanovun valideynlərini, yaxınlarını salamlayır və sonra da torpaqlarımız uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

Rayon rəhbəri çıxış edərək deyir ki, burada əyləşən hər bir kənd sakini ölkəmizdə son illər əldə olunan nailiyyətlərdən xəbərdardır. Bütün bunlar ulu öndər Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı cənab Prezidentimiz İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasətin, həyata keçirdiyi islahatların nəticəsidir. Baxıram ki, görüşə gələnlərin əksəriyyəti orta və yaşlı nəslin nümayəndələridir. Ona görə də 90-cı illərin əvvəlləri sizin hər birinizin təbii ki, yadındadır. Ölkəni hara sürükləyirdilər, onu da bilirsiniz. Vətəndaş müharibəsi ərəfəsində idik. Hakimiyyətə gələn AXC-Müsavat cütlüyü Azərbaycanda xaos, hərc-mərclik yaratmışdı. Heç bir siyasi savadı, idarəçilik təcrübəsi olmayan adamlar meydan sulayırdılar. Vətəndaşların hüquqları pozulurdu, döyülüb təhqir olunurdular. Azad söz hər vəchlə boğulurdu, jurnalistlərə hücum olunurdu. Hətta canlı efirə müdaxilə edir, milyonlarla tamaşaçının qarşısında hoqqabazlıq edirdilər.

Xalq isə bütün bunları görürdü və haqlı olaraq belə bir iqtidarın onlara heç vaxt dayaq durmayacağını, qayğı göstərməyəcəyini, adamların taleyini düşünməyəcəyini artıq yəqin etmişdi. Surət Hüseynovun bir həmləsindən qorxan, qaçıb gizlənən qondarma hakimiyyət çox qala bilməzdi və belə bir vaxtda xalq ulu öndər Heydər Əliyevə üz tutdu. Xalqın təkidi ilə hakimiyyətə gələn Heydər Əliyev ölkəni vətəndaş müharibəsindən xilas etdi. Heç bir il keçməmiş "Əsrin müqaviləsi"ni bağladı. Özü də həm xarici, həm də daxili təzyiqlərə sinə gərərək, xalqa arxalanaraq etdi bütün bunları.

Ümummilli liderin layiqli davamçısı cənab İlham Əliyevin ölkənin daxilində və xaricində apardığı işləri bütün dünya bilir və hətta bir çox ölkələr bundan bəhrələnir, Liderimizin təcrübəsindən yararlanmağa çalışırlar. Təkcə 44 gün ərzində 30 ildən çox torpaqlarımızı işğal edən düşmənə layiqli cavab verilməsi və Qarabağımızın azad edilməsinin özü bir məktəb, heyratamiz bir təcrübə, öyrəniləcək dərsdir. Bu dərsin müəllifi isə cənab Ali Baş Komandan İlham Əliyevdir.

Burada bir haşiyə çıxmaq istəyirəm ki, Məhərrəm Quliyev istər Prezident Administrasiyasının Qərb bölgəsində kurator işləyəndə, istərsə də Ağstafada icra hakimiyyətinin başçısı olarkən bir neçə dəfə çıxışlarına qulaq asmışam və onun hər auditoriyaya uyğun söhbət qurması diqqətimi cəlb edib. İndi burada – Veyisli kəndində də hiss etdim ki, sadə kənd adamları söhbətdən necə razıdırlar.

...Qeyd edək ki, rayon mərkəzinin yaxınlığında yerləşən Veyisli kəndinin ərazisi 2608 hektardır. Onun 986 hektarı pay torpağıdır. Bələdiyyə mülkiyyətində isə 986 hektar torpaq sahəsi var. Kənddə 360 şagird yerlik tam orta məktəb, poçt, kitabxana, ATS, klub, uşaq bağçası-körpələr evi fəaliyyət göstərir.

Belə baxanda kənddə normal yaşamaq və işləmək üçün müvafiq şərait var. Bəs problemlər nədir? Bunları səyyar görüşün gedişində tamamilə öyrəndik və indi oxuculari onların hər neçəsi ilə tanış edirik.

**Hüseyn Zeynalov, kənd ağsaqqalı:** Veyisli kəndində sakinlərin rifah halı yaxşıdır, pis dolanmırıq. İstərdim ki, belə bir şəraitin yaradılmasında böyük əməyi olan Prezidentimiz İlham Əliyevə təşəkkürlərimi çatdırasınız. Yeganə xahişim kəndin elektrik təsərrüfatının ötən əsrin 60-cı illərində tikildiyini nəzərə alaraq onun yenilənməsinə köməklik göstərilməsindən ibarətdir.

**Hilal Zeynalov, kənd sakini:** Pay torpaq sahələrinin yerləşdiyi ərazidə bir ədəd subartezian quyusunun qazılmasına böyük ehtiyacımız var. Xahiş edirik köməklik göstərəsiniz.

**Zakir Qocayev, kənd sakini:** Kənddə internet xidmətini yaxşılaşdırmaq üçün onun sib kabellə yenilənməsinə, mədəniyyət evinin, yeni körpələr evi-uşaq bağçasının və stadionun tikintisinə köməklik göstərməyinizi xahiş edirəm.

**Əfsanə Allahverdiyeva, kənd uşaq bağçasının müdiri:** Bağçamız uyğunlaşdırılmış binada yerləşdiyi üçün burada su sistemi yoxdur. Xahiş edirik belə bir xəttin çəkilməsinə yardımçı olasınız.

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev rayon ərazisində mövcud 958 ədəd subartezian quyusunun 132 ədədinin əsaslı bərpasına, mənbəyini Qarabağ kanalından götürən 4 nasos stansiyasının isə boru kəmərlərinin korroziyaya uğramış hissələrinin yenilənməsinə və suvarma suyuna ciddi ehtiyac olan ərazilərdə yeni subartezian quyularının qazılmasına köməklik göstərilməsi ilə bağlı Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə rəsmi müraciət etdiyini görüşə gələnlərin nəzərinə çatdırdı.

Rayon icra hakimiyyətinin başçısı Veyisli kəndində hazırda mövcud olan problemlərin Goranboyun iqtisadi inkişaf Proqramına daxil edildiyini və mərhələli şəkildə həll olunacağını bildirdi.



Məhərrəm Quliyev görüşün sonunda gülümsəyərək üzünü sakinlərə tutub "Siz problemlərinizi deyib ürəyinizi boşaltdınız. İndi onlar bizim ürəyimizdədir və nəyin bahasına olursa-olsun həll etməliyik ki, bizim də ürəyimiz boşalsın. Özü də işlərə bax, bu andan başlayırıq".

Görüş-qəbul başa çatsa da sakinlər rayon icra hakimiyyətinin başçısını, onunla gələn digər məsul şəxsləri dövrəyə almışdılar. Bayaq dönə-dönə auditoriyadan " ayrı kimin nə sualı, təklifi, şikayəti var?" deyə soruşulsa da onlar yenə yaxınlaşıb öz ürək sözlərini söyləyir, şəxsi istəklərini dilə gətirir, razılıqlarını bildirirdilər. Deyirdilər ki, Azərbaycan Prezidentinin tapşırığı ilə keçirilən belə görüşlər ürəyimizcədir. Çünki əvvəllər adi bi xahiş üçün rayon mərkəzinə getməli olurduq. Bəzən heç sözümüzü belə deyə bilmirdik. İndi rayon rəhbərləri özləri yanımıza gəlir, təmkinlə bizi dinləyir və problemlərimizi həll edirlər.

...Goranboydakı görüş göstərdi ki, icra hakimiyyəti-əhali münasibətləri səmimiyyət, qarşılıqlı etimad, hörmət əsnasında qurulub. Belə olanda istənilən problemi həll etmək mümkündür.

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Goranboy – Veyisli**

Xalq qəzeti .- 2022.- 14 iyul.- S.10.